

*Biz hüquqi dövlət qururuq. Hüquqi dövlətin əsasını təşkil edən qanunlardır. Biz qanunsuzluqları, ədalətsizlikləri aradan götürəcəyik, ancaq bir iş qanunsuz olursa, o biri qanunsuz işlə qanunsuzluğu aradan götürmək olmaz. Bir şey ədalətsizliklə olubsa, ədalətsizliklə ədaləti bərpa etmək olmaz. Dövlət iki şeydən sarsıla bilər: günahkar cəzasız qalanda və günahsıza cəza veriləndə. Ədaləti bərpa etmək lazımdır.*

**Heydər ƏLİYEV**
**Ümummilli lider**

# Siyasətdə tarixi şəxsiyyət amili

**Kainat kimi dünyamızın tarixi də sonsuzdur. O qədər sonsuz ki, bəzən onu insanların sadəcə “baxıb keçdiyi bir pəncərə”yə də bənzədiblər. Tarixin pəncərəsindən bu dünyaya baxıb keçənlərin sayı da sonsuzdur. Bu sonsuzluq zəncirində çox nadir simalar olur ki, onlar sadəcə baxıb keçmir, öz baxışları ilə bəşəriyyətin həyatını dəyişəcək qədər güclü bir iz buraxıb gedirlər. Məhz belə şəxsiyyətlərin surəti tarixin şərəf lövhəsində özünə daimi yer qazanır və tarix davam etdikcə onların şərəfli əməlləri də yaşayır.**

**Tariximizdə öz şərəfli yerini tutmuş, milyonlarla insanın qəlbində öz heykəlini ucaltmış və müstəqillik tariximizin əbədiyyət rəmzinə çevrilmiş siması Heydər Əliyevdir. O, əbədiyyətə qovuşub, yaratdığı tarix isə öz uğurlu yoluna davam etməkdədir. Hər ötən il Heydər Əliyev dühasının böyüklüyünü, möhtəşəmliyini bir daha üzə çıxarır. Zaman Heydər Əliyevin siyasi baxışlarına daha dərin məna qazandırır, onun Vətənimizin indisinə və gələcəyinə çox möhkəm tellərlə bağlı olduğunu daha aydın göstərir. Dövrümüzün ictimai-siyasi reallıqları, geopolitik məkanda baş verən dəyişikliklər və bütün bu təlatümlərin fövqündə dayanan müasir milli dövlətçiliyimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş siyasi kursun mükəmməl bir məntiqdən– Heydər Əliyev zəkasından yoğrulduğunu bir daha sübut edir.**

**Heydər Əliyev şəxsiyyətinə təkcə Azərbaycan kontekstində deyil, daha geniş miqyasda – XX əsrin qlobal siyasi aynasında baxmaq, dünya siyasətinin formalaşmasında mühüm rol oynamış siyasi xadimlərlə bir sırada nəzər salmaq onun siyasi portretini daha önəmli cizgilərlə zənginləşdirmiş olar. Məhz bu rakursda biz Heydər Əliyevi bütün ömrü boyu müasir dünya siyasətinin qaynar məkanında, onun yaradıcıları və yönləndiricilərinin ön sıralarında görürük. Xüsusən sovet dövrünün son illərində, kommunist ideologiyasının aqoniyası fonunda yürüdülən Qorbaçov siyasətinə qarşı çıxması və heç kim tərəfindən anlaşılmayan qeyri-müəyyən bir siyasəti dəstəkləməkdən imtina etməsi onu dövrün pozitiv siyasi perspektivlərini düzgün müəyyən edə bilən yeganə sovet siyasətçisi kimi tanıdır. Hadisələrin sonrakı inkişafı da göstərdi ki, sovet liderləri arasında post-sovet məkanında müstəqilləşmə epoxasının zərurətlərini duyan və siyasətdə yeni yolun traektoriyasını dəqiqliklə cıza bilən, yeni dövrün qüsursuz siyasi-ideoloji kursunu ərsəyə gətirən yeganə siyasətçi məhz Heydər Əliyev oldu. Məhz bu baxımdan, öz dövrünün ən xarizmatik dövlət xadimi və ən praqmatik siyasətçisi kimi tanınan Heydər Əliyev ümumbəşəri dəyərlərin daşıyıcısı missiyasına yüksələn universal şəxsiyyət kimi regionun coğrafi sərhədlərinə sığmayaraq ümumdünya kontekstinə çıxır.**

Heydər Əliyevin siyasi fəaliyyəti, əsasən, XX əsrin ikinci yarısı ilə bağlıdır. Bütövlükdə XX əsr bəşər tarixində bir çox təlatümlü hadisələrin baş verdiyi, iki dünya müharibəsinin od ələdiyi, çoxsaylı milli dövlətlərin meydana gəldiyi, siyasi və iqtisadi böhranların və eyni zamanda, dünyanın inkişafına təkan verən proseslərin yaşandığı qlobal ziddiyyətlərlə dolu dramatik yüzillik kimi tarixə düşdü. Baş verən bütün bu proseslər dünyanın bugünkü mənzərəsini ərsəyə gətirməklə yanaşı, həm də siyasətdə aparıcı şəxsiyyətlərin, dövlətlərin və bütövlükdə bəşəriyyətin taleyində nə qədər önəmli rol oynadığını göstərdi. Bu yüzillikdə bəşəriyyət məhz tarixi şəxsiyyətlərin sayəsində ziddiyyətli, odlu-alovlu dünyadan nisbətən sabit və dayanıqlı dünyaya keçid aldı. XX əsrin tarixi məhz şəxsiyyətlərin tarixdəki rolu baxımından ibrətamiz bir dövr oldu. Bu tarixi Çörçilsiz, Şarl de Qollsuz, Kennedisiz, Mandelasız və eləcə də Heydər Əliyevsiz təsəvvür etmək və şərh etmək mümkün deyil. Tarixi sınaqlar qarşısında öz xalqlarını məhv olmaq təhlükəsindən böyük siyasi məharət hesabına çıxarmağa nail olmuş bu tarixi şəxsiyyətlər XX əsrin müxtəlif dövrlərində təkcə öz ölkələrinin deyil, həm də regionun və bu regionda yaşayan xalqların tarixində dönüş yaratmağa nail oldular. XX əsrin böyük siyasi xadimlərindən biri kimi tanınan Uinston Çörçil siyasi karyerasının ən yüksək pilləsində bütün bəşəriyyəti təhdid edən şər qüvvə ilə – faşizmlə üz-üzə qalmışdı. Faşist Almaniyası artıq Britaniya şəhərlərini, paytaxt Londonu bombalayırdı. Belə bir çətin məqamda düşmənin amansız həmlələrinin qarşısını almaq, təcavüzə məruz qalmış xalqı ruh düşkünlüyündən çıxarmaq, ümummilli müqavimət hərəkatını formalaşdırmaq Britaniya hökumətinin qarşısında duran ən başlıca vəzifə idi. Məhz Çörçilin uzaqgörən siyasi gedişləri və qətiyyətli siyasi duruşu nəticəsində faşist Almaniyasına qarşı çox güclü ingilis cəbhəsini formalaşdırmaq mümkün oldu. Zaman və geosiyasi faktorlar baxımından fərqli olsa da, hadisələrin kökündə dayanan səbəblər və təhlükənin miqyası baxımından müstəqilliyimizin ilk illərində qarşılaşdığımız təhdid və təhlükə ötən əsrin 40-cı illərində Britaniyanın üzləşdiyi təhlükədən çox da fərqlənmir. Öz şovinist ideoloji baxışlarına görə mənfur erməni millətçiliyi faşist düşüncəsindən heç də geri qalmır. Ermənistan rəhbərliyinin Avropa Şurasının tribunasından azərbaycanlılarla ermənilər arasında etnik uyuşmazlığın mövcudluğunu iddia etməsi elə nasistlərin “ari”lərlə başqa millətlərin uyuşmazlıq düşüncəsi ilə eynilik təşkil edir. Məhz buna görə Azərbaycanın üzləşdiyi təcavüz və ermənilər tərəfindən milli ayrı-seçkilik zəminində etnik təmizləmə siyasəti artıq sadəcə milli təhlükəsizliyimizi deyil, eyni zamanda bəşəri dəyərləri təhdid edən, beynəlxalq hüquqa zidd olan təhlükəli tendensiya xarakteri almışdı. Belə bir məqamda erməni faşizminə qarşı ümummilli cəbhəni formalaşdıra bilməsi, məhz Heydər Əliyev şəxsiyyətinin qüdrəti idi. Xüsusilə, 1994-cü ilin aprelində düşmən hücumlarının kəskinləşdiyi məqamda Heydər Əliyevin xalqa müraciətini xatırlamaq yerinə düşər. Ağdam, Tərtər, Füzuli rayonları istiqamətində erməni qoşun birləşmələrinin aramsız hücumları ümummilli səfərbərliyin ən yüksək şəkildə təşkili zərurətini yaratmışdı. Belə bir anda Heydər Əliyevin soyuqqanlı və qətiyyətli, xalqın vətənpərvərlik hisslərini alovlandıran müraciətindən sonra qısa zaman ərzində cəbhədə əhəmiyyətli dönüş yarandı, düşmən tapdağında olan bir neçə qəsəbə və kəndlərimiz işğaldan azad olundu. Cəbhədə yaranan dönüş tez bir zamanda düşməni atəşkəs sazişi imzalamağa məcbur etdi. Məhz bu tarixdən başlayaraq, Azərbaycanda daha sistemli və vahid mərkəzdən idarə olunan ordu quruculuğuna start verildi.

Bu epizodlarda iki fərqli zamanda, dövlətçiliyin məhvolma təhlükəsi ilə üzləşdiyi ən çətin məqamlarda tarixi şəxsiyyətlərin üzərinə götürdükləri missiyanın xalqların taleyində nə qədər mühüm rol oynadığını görürük. Öz xalqlarının taleyüklü məqamlarında göstərdikləri cəsarət, siyasi qətiyyət və əzmkarlıq keyfiyyətləri hər iki siyasət adamını bəşər tarixində öz dəst-xətti olan görkəmli siyasi xadimlər kimi tanıtdırır.

XX əsrin aparıcı şəxsiyyətlərindən sayılan Şarl de Qoll “militarist” Avropanın demokratikləşən Avropaya transformasiyasında həlledici rol oynamış siyasi xadimlərdən biridir. Bəzi hallarda aşırı milliyətçiliyə əsaslanan siyasət yürütdüyü iddia olunsa da, onun XX əsrin ən görkəmli siyasət adamlarından biri olduğunu inkar etmək mümkün deyil. İkinci Dünya müharibəsi zamanında, Fransanın ağır məğlubiyyətlərə düçar olduğu bir vaxtda onun rəhbərliyi ilə yaradılan Azad Fransız Qüvvələri Fransanın nasist Almaniyasına qarşı mübarizəsində başlıca hərəkətverici qüvvə oldu. Xüsusilə, müharibənin başlanğıc illərində de Qollun Fransa xalqına davamlı radio müraciətlərinin düşmənə qarşı müqavimət hərəkatının formalaşmasına təkan verən əsas səbəb olduğunu bu günün tarixçiləri və siyasət adamları qələbənin əsas amili kimi dəyərləndirirlər.

Zaman-zaman Azərbaycan dövlətçiliyinə qarşı qəsdlərin, dövlət çevrilişi cəhdlərinin müstəqilliyimizin və gənc dövlətimizin məhv olması təhlükəsini ortaya çıxardığı anlarda Heydər Əliyevin fövqəladə çevikliklə öz qətiyyətli mövqeyini birbaşa xalqa ünvanlaması və bir anda bütün xalqı təhlükəyə qarşı birləşdirməyə nail ola bilməsi də onun siyasi cəsarətinin və xalqla rəhbər arasında qarşılıqlı inamın nadir nümunəsidir. 1994-cü ilin oktyabrında Xüsusi Təyinatlı Polis Dəstəsinin xarici dövlətlərin kəşfiyyat idarələri ilə birgə ölkəmizdə dövlət çevrilişi cəhdinə qarşı Heydər Əliyevin inamlı duruşu yaxın tariximizdə ən parlaq siyasi qətiyyət nümunəsidir. Oktyabrın 4-də axşam radələrində televiziya və radio ilə xalqa müraciət edən Heydər Əliyev dövlətçiliyimizin təhlükə altında olduğunu açıq şəkildə ifadə edərək milli maraqlarımızın müdafiəsi naminə insanları Prezident Administrasiyasının qarşısına səslədi. Qısa zaman ərzində bu çağırışa səs verən on minlərlə Azərbaycan vətəndaşı Prezident Administrasiyasının qarşısına toplaşaraq, dövlətimizin müdafiəsi yolunda Heydər Əliyevlə eyni mövqedə dayandığını ifadə etdi. Məhz belə bir fövqəladə həmrəylik dövlət çevrilişinin qarşısını aldı. Örnək gətirdiyimiz tarixi faktlar yenə də xalqların taleyinin müəyyənləşdiyi həlledici məqamlarda tarixi şəxsiyyət amilinin nə qədər önəmli rol oynadığını göstərir.

Bu kontekstdə Heydər Əliyev və Şarl de Qoll kimi iki tarixi şəxsiyyəti birləşdirən mühüm bir keyfiyyət – xalqlarının ən çətin anlarında onları dövlətçilik naminə səfərbərliyə ruhlandıran müstəsna natiqlik qabiliyyətlərinin və xalqın onlara sonsuz inamının olmasıdır.

Məşhur çex dissidenti və siyasətçisi Vaslav Havel Heydər Əliyevlə eyni siyasi dövrün hadisələrinə şahidlik etmiş görkəmli şəxsiyyətlərdəndir. Sovet imperiyasının Şərqi Avropada mövqelərini möhkəmləndirməsindən sonra aktiv siyasi mübarizə meydanına atılan Havel uzun illər regionun kommunist totalitarizmindən qurtulmasında, Şərqi Avropa dövlətlərinin bu imperiyadan asılılığına son qoyulmasında müstəsna rol oynamışdır. Xüsusilə, Sovet İttifaqının çökməsi ərəfəsində Şərqi Avropada baş qaldıra biləcək etnik münaqişələrin qarşısını almaq, Çexiya və Slovakiyanın sülh şəraitində müstəqil dövlətlər kimi dünya birliyinə inteqrasiyasına zəmin formalaşdırmaq Vaslav Havelin sülhpərvər siyasətinin prioritet istiqamətləri idi. Vaslav Havellə Heydər Əliyevi birləşdirən ortaq məziyyət isə bu tarixi şəxsiyyətlərin uzun müddət ərzində kommunist ideologiyası sırınan cəmiyyətlərinə demokratik prinsipləri və Avropa dəyərlərini aşılaya bilmək qabiliyyətləridir. Azərbaycan hələ müstəqilliyini bərpa etməzdən əvvəl Sovet ideologiyasının artıq yeni zamanın reallıqları ilə ayaqlaşmadığını və məhvə məhkum olduğunu dəfələrlə bildirən Heydər Əliyev hakimiyyətə dönüşündən sonra demokratik dəyərləri, hüququn aliliyi prinsipini dövlət siyasətinin aparıcı xəttinə çevirdi. Ölkədə hakimiyyətin üç əsas qolunun – qanunvericilik, icra və məhkəmə hakimiyyətinin demokratik prinsiplər əsasında təşkilini təmin etdi, siyasi partiyaların fəaliyyətinə geniş zəmin yaradaraq, hakimiyyətin sağlam siyasi mübarizə yolu ilə formalaşdırılmasının əsasını qoydu.







Həyat və mübarizə yollarına nəzər saldığımız liderlər fəaliyyət göstərdikləri məkanın coğrafi sərhədlərini aşaraq universal düşüncə sahibləri, dünyanın yeni sosial yaşam və yeni siyasət reallıqlarını ərsəyə gətirən yaradıcı insanlar kimi tanınmışlar. Onlar üçün məkan və zaman fərqi yoxdur. Bu baxımdan, Heydər Əliyevin malik olduğu ali insani keyfiyyətlər və siyasi qabiliyyətlər ona istənilən siyasi mühitdə və istənilən coğrafi məkanda siyasi elitanın ən yüksək pilləsində qərarlaşmağı təmin edə bilərdi. Belə bir dühanın məhz Azərbaycan xalqına mənsub olması və özündən sonra bu xalqın tarixində yaradıcı iz və daha uzaq gələcəyə hesablanmış siyasi irs qoyması bütövlükdə xalqımızın milli uğuru və iftixar mənbəyidir. Müasir dünya tarixində yaradıcı iz qoymuş digər tarixi şəxsiyyətlərlə ortaq məziyyətlər daşıdığı üçün Heydər Əliyev dünya miqyaslı fenomenal şəxsiyyətdir, Azərbaycan xalqının hər zaman fəxr edəcəyi və həyat yolundan ibrət götürəcəyi böyük bir mütəfəkkirdir.

Heydər Əliyevlə eyni zamanda SSRİ-nin siyasi elitasının ən yüksək pilləsində qərarlaşmış siyasətçilər Mixail Qorbaçov bu gün siyasət tarixində ən miskin fiqurlar kimi görünür.

Bütün siyasi karyerası boyunca Heydər Əliyevə qarşı qısqanc münasibətin, zaman-zaman edilən xəyanətlərin kökündə də məhz onun öz zəhməti ilə qazandığı böyük nüfuzun “təhlükəsi” dayanırdı. Malik olduğu keyfiyyətlərlə tutduğu siyasi vəzifənin məsuliyyəti arasında dərin uçurum olan Mixail Qorbaçovun parlaq zəkaya malik bir şəxsiyyətə– Heydər Əliyevə qarşı qərəzli münasibəti də məhz o “təhlükə”nin duyğusundan qaynaqlanırdı. Nahaq yerə deyilmir ki, zaman tarix boyunca əsl həqiqətləri üzə çıxaran, kimin kim olduğunu tam çılpaqlığı ilə göstərən ən dürüst mizan-tərəzidir. Tarixin üzə çıxardığı ədalət və reallıq isə bundan ibarətdir: Qorbaçov öz adını tarixə böyük bir dövləti dağıdan, əli öz vətəndaşlarının qanına bulaşmış cinayətkar bir şəxs kimi, Heydər Əliyev isə Azərbaycan adlı məmləkəti yenidən quran, onun müstəqilliyini əbədi və sarsılmaz edən şəxsiyyət kimi yazdırdı. Bu da tarixin mizan-tərəzisi!

Sovet İttifaqının süqutundan sonra müstəqilliyini bərpa edən dövlətlərin bugünkü siyasi-iqtisadi durumu, regional və qlobal miqyasda tutduqları yer həmin dövlətlərə başçılıq etmiş şəxslərin seçdikləri siyasi xəttlə birbaşa bağlıdır. Bunu post-sovet ölkələrinin keçmiş rəhbərlərinin fəaliyyətinə və həmin ölkələrin bugünkü siyasi-iqtisadi durumuna nəzər saldıqda daha aydın görmək mümkündür. Belə bir müqayisədə də Heydər Əliyev siyasəti öz möhtəşəmliyi ilə üzə çıxır. Həm də bir faktı nəzərdən qaçırmaq olmaz ki, Azərbaycanın yerləşdiyi geopolitik məkan digər post-sovet ölkələrindən öz mürəkkəbliyi və həssaslığı ilə fərqlənir. Bu gün Gürcüstanın düşdüyü geopolitik çıxılmazlıq sindromu, aqressiv şəkildə şimal qonşusunun təcavüzünə uğraması və demək olar ki, müdafiəsiz qalması bu ölkənin sabit və tarazlı siyasətə nə qədər ehtiyacı olduğunu bir daha göstərir. Yəqin ki, əgər zamanında ölkədə milli müstəqillik siyasətinin əsası düzgün qoyulsaydı, orada da dövlətin sabit və dayanıqlı inkişafı təmin edilmiş olardı.

Regionda Rusiyanın forpostu funksiyasını kölə sadiqliyi ilə yerinə yetirən, ümumiyyətlə, heç zaman öz mükəmməl dövlətçiliyini qurmamış və yəqin ki, heç zaman da buna nail olmayacaq Ermənistanda isə heç bir müstəqil siyasətdən, “parlaq gələcək” vəd edən siyasi düşüncədən, ənənədən və liderlik institutundan danışmaq mümkün deyil. Görünür, bu çürük siyasətin, daha doğrusu, siyasətsizliyin, öz ölkəsini böyük fəlakətlərə sürüklədiyini nə Ermənistan hakimiyyəti, nə də erməni xalqı əməlli-başlı dərk etmir.

Lap yaxın dövrdə Qərblə Şərq arasında geosiyasi çəkişmələrin qurbanına çevrilmiş Ukraynanın da durumu ürəkaçan deyil. Bu dövləti 20 ildən çox müstəqillik dövrü ərzində idarə etmiş siyasətçilər tərəfindən yürüdülən siyasi kursun dəyəri, daha doğrusu, dəyərsizliyi bu gün göz qabağındadır. Bütün bu illər ərzində formalaşan kövrək siyasi vəziyyət, xaotik siyasi gedişlər fonunda daim tənəzzülə gedən iqtisadi durum və davamlı hakimiyyət dəyişmələri bu gün Ukrayna dövlətçiliyinin möbcudluğunu belə təhlükə altına almışdır. Ukraynada baş verən hadisələr bir çox cəhətlərinə görə Azərbaycan – Ermənistan münaqişəsini xatırladır. Lakin ən böyük fərq ondan ibarətdir ki, cərəyan edən dramatik hadisələrin səhnəsində bu hadisələri cilovlayıb dayandırmağa və bütün vətəndaşları Ukrayna xalqının milli maraqları ətrafında birləşdirməyə qadir olan siyasi lider yoxdur. Ukrayna xalqının avtoritarizmdən qurtulduğu bu həssas məqamda Ukraynaya məhz onların “Heydər Əliyevi” hava və su kimi lazımdır.

Beləliklə, Heydər Əliyevdən başqa vaxtilə Sov. İKP MK Siyasi Bürosunun tərkibində olmuş bütün siyasətçilərin adlarını əlahəzrət tarix qısa müddət ərzində yaddaşlardan sildi. Onlardan heç birinin siyasi irsi və siyasi kursu yeni, müstəqil bir dövlətin həyat yoluna çevrilmədi. Dünya inkişafının perspektivini aydın görən və ölkəsini, xalqını ona doğru istiqamətləndirən Heydər Əliyevin uzaqgörən siyasəti isə müasir Azərbaycanın dünya birliyinə təbii inteqrasiyasını təmin edərək onun müstəqilliyini əbədi və dönməz etdi. Bu siyasət, hər şeydən əvvəl, uzunmüddətli sabitliyin bərqərar olunmasına yönəlmişdir; bu siyasət zaman çərçivəsi ilə məhdudlaşmır– gələcəyə hədəflənmişdir; bu siyasət geosiyasi maraqları toqquşdurmur, əksinə, həmin maraqların Azərbaycanın milli mənafeləri ilə uzlaşan ideal harmoniyasını yaradır. Məhz bu siyasət hələ uzun illər Azərbaycanın daxili və xarici siyasət doktrinasının özəyini, milli inkişafımızın təməlini təşkil edəcəkdir. Məhz bu cəhətləri Heydər Əliyev siyasətini qlobal siyasət səviyyəsinə yüksəldir və onun özünü isə dünya miqyaslı şəxsiyyətə çevirir.

Heydər Əliyev Azərbaycan xalqının rifahını, milli dövlətçiliyimizin daha da güclənməsini hər şeydən üstün tutan vətənpərvər lider idi. Xüsusilə, ömrünün son on ilində Heydər Əliyevin fəaliyyəti, hətta bir insan ömrünə sığmayacaq qədər zəngin oldu. Xarici ölkələrə etdiyi davamlı səfərlərlə, daxili və xarici siyasətimizin dayaqlarını yaratmaqla, ümumən, bütün ölkənin yenidən qurulmasına rəhbərlik etməklə, Heydər Əliyev yeni Azərbaycanın əsasını qoydu. İstənilən xarakterli böhrandan sabitliyə keçidin uzunmüddətli və ağrılı proses olduğu şübhəsizdir. Heydər Əliyev uzaqgörən siyasi gedişləri ilə bugünkü sabitliyi qısa zaman kəsiyində bərqərar etməyə nail oldu. Gərgin iş rejiminin səhhətində problemlər yaratmasına baxmayaraq, Azərbaycan uğrunda yorulmaz fəaliyyətini bir an belə dayandırmadı. Yalnız Heydər Əliyevin güclü qətiyyəti, ölkəmizin maraqlarına xələl gətirə biləcək məsələlərdə tutduğu prinsipial mövqeyi Azərbaycana beynəlxalq miqyasda yanaşmanı dəyişdi. Məhz onun yorulmaz səyləri nəticəsində Azərbaycan konservativ, tipik post-sovet ölkəsi kimi deyil, beynəlxalq və regional müstəvidə sabit və davamlı inkişaf vəd edən bərabərhüquqlu tərəfdaş kimi tanınmağa başladı.

Heydər Əliyev şəxsiyyəti o qədər zəngindir ki, istənilən aspektdən yanaşdıqda onun intəhasız fəaliyyətinin geniş okeanına çıxa bilirsən. Öyrənildikcə öyrənilən, heç zaman tükənməyən Heydər Əliyev irsi, onun yaradıcı zəkası hələ uzun illər çoxtərəfli araşdırmaların mövzusu olacaq. Və hər zaman bu şəxsiyyətin tarixdə oynadığı əhəmiyyətli rol daha dərin və geniş məzmunda, konseptual şəkildə açılacaq. Amma bir həqiqət heç zaman dəyişməyəcək: Heydər Əliyev tərəqqi və ədalət, sülhpərvərlik və humanizm ideyalarına, bəşəri dəyərlərə əsaslanan geniş spektrli fəaliyyəti ilə bəşər tarixinin yetişdiriyi nadir şəxsiyyətlərdəndir!

*Cavanşir FEYZİYEV,*
*Milli Məclisin deputatı,*
*fəlsəfə doktoru*